**Etik davranış məsələləri ilə bağlı 2022-ci il üzrə məlumat**

Hər il olduğu kimi, 2022-ci il ərzində də miqrasiya orqanları işçiləri tərəfindən etik davranış qaydalarına əməl olunması, onların fəaliyyətində şəffaflığın və səmərəliliyin, vətəndaş məmnunluğunun təmin edilməsi, miqrasiya orqanlarının nüfuzunun artırılması əsas götürülmüşdür.

Hesabat dövrü ərzində miqrasiya orqanları işçiləri tərəfindən etik davranış qaydalarına riayət edilmənin zəruriliyi və bu sahədə biliklərin artırılması üçün bir sıra seminarlar keçirilərək "Etik davranış qaydaları", "Miqrasiya orqanları işçilərinin daxili intizam qaydaları", "Korrupsiyaya qarşı mübarizə", "Etik davranış qaydaları və bu qaydaların pozulmasına görə məsuliyyət", "Korrupsiya ilə əlaqədar hüquq pozuntusuna görə məsuliyyət. Etik davranış qaydaları və maraqların toqquşmasının qarşısının alınması", "Korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılması", "Miqrasiya proseslərinin idarə olunmasında vətəndaş cəmiyyəti institutlarının rolu" və "Miqrasiya orqanlarında şəffaflığın artırılması və korrupsiyaya şərait yarada biləcək halların aradan qaldırılması istiqamətində görülən işlər. Hüquqi, fiziki və vəzifəli şəxslərin korrupsiya ilə əlaqədar hüquqpozmalara görə məsuliyyəti" mövzularında işçilərin təlimlərə cəlb edilməsi təmin edilmişdir. Eyni zamanda, Dövlət Miqrasiya Xidməti yanında İctimai Şura ilə İctimai Şuranın sədri Azər Allahverənov tərəfindən 14 iyun tarixində Dövlət Miqrasiya Xidmətinin 50 nəfərdən çox əməkdaşı üçün "Miqrasiya proseslərinin idarə olunmasında vətəndaş cəmiyyəti institutlarının rolu" və "Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları" mövzularında təlimlər keçirilmişdir. Həmçinin Dövlət Miqrasiya Xidmətində keçirilmiş iclaslarda və müşavirələrdə Xidmət üzrə etik davranış qaydaları ilə bağlı mövcud vəziyyət diqqətdə saxlanılmış, aparılmış müzakirələr zamanı etik davranış qaydalarının pozulmasının nəticələrinin aradan qaldırılması və ictimai etimadın bərpası istiqamətində fəaliyyətin ciddi nəzarətdə saxlanılmasının vacibliyi qeyd edilərək bu sahədə icrası zəruri olan tapşırıqlar verilmişdir.

Miqrasiya orqanlarında etik davranış qaydalarının tətbiqi, bu sahədə maarifləndirmə və mübahisələrin həlli, o cümlədən etik davranış qaydalarına əməl olunmasına nəzarət məqsədilə Dövlət Miqrasiya Xidməti rəisi tərəfindən 25.01.2022-ci il tarixdə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin etik məsələləri ilə bağlı 2022-ci il üzrə Tədbirlər planı" təsdiq edilmiş və həmin Tədbirlər planında öz əksini tapmış tədbirlərin icrası təmin olunmuşdur.

Hesabat ilində miqrasiya orqanı işçilərinin qulluq etikasının normalarına riayət etmələri vəziyyəti müntəzəm olaraq təhlil edilmiş və nəticəsindən asılı olaraq müvafiq tədbirlər görülmüşdür. Cari il ərzində "Azərbaycan Respublikası miqrasiya orqanlarında qulluq keçən işçilərin etik davranış Qaydaları"nın tələblərini və intizam qaydalarını pozmuş 10 əməkdaşa "irad tutma", 1 əməkdaşa "töhmət" intizam tənbehi tədbirləri tətbiq edilmişdir.

Miqrasiya orqanlarında etik davranış qaydalarına ciddi riayət edilməsi istiqamətində tədbirlər davam etdirilir.